# Azərbaycan kulturologiyasında metodologiyanın refleksiya və termin problemləri

Xaləddin Sofiyev,
ADMİU-nun sosial-siyasi elmlər kafedrasının müdiri, kulturologiya üzrə fəlsəfə doktoru, dosent
E-mail: sofiyev.xaleddin@mail.ru

**Azərbaycanda kulturoloji fikir hələ də lazımi səviyyədə metodoloji baxış bucağına çıxmağın, ümumiyyətlə, metodoloji problemlər müstəvisində epistemoloji axtarışlar aparmağın əhəmiyyətini gərəyincə dəyərləndirə bilmir. Odur ki milli mədəniyyətşünaslığımız öz obyektinə və predmetinə ontoloji planda yaxşı köklənsə də, qnoseoloji plana onun marağı hələ də rüşeym şəklində qalmaqdadır. Mədəniyyətşünaslığımız mədəniyyətdə baş verənlərdən söhbət aça bilir, olanları anlamaq, düşünmək məsələsində isə öz çatışmazlıqlarını ortaya qoyub mükəmməl düşünməyi bacarmır. Bunun nəticəsidir ki, bizdə kulturoloji nəzəriyyələrin analizinə həsr olunmuş monoqrafiya tapmaq bir qayda olaraq həmişə müşkülə çevrilir...**



Bununla bağlı müəyyən məqalələrə rast gəlinsə də, ölkəmizdə nə monoqrafiya səviyyəsində, nə populyar ədəbiyyat janrında kulturoloji nəzəriyyələr kompleksinə dair kitaba təsadüf edilmir. Məlumdur ki, elmi diskussiyalar öz təcəssümünü əsasən konkret faktların, dəyərləndirmələrin, bəzən isə ideyaların üstündə tapır. Dilçilikdə bu dediyimiz hal özünü sözün etimologiyası, morfoloji mənsubiyyəti ilə əlaqədar göstərir. Ədəbiyyatşünaslıqda bədii əsərin janrı və dəyəri üstündə dartışmalarda təzahür edir. Qərbdə bir vaxtlar Şekspirin faciələri ilə əlaqədar Volter şübhə dolu fikirlər söyləyəndə, Şərqdə Füzuli poeziyasının faydasını Mirzə Fətəli şübhə altına alanda konkret əsərləri müzakirə etmişdilər (1, səh. 314-315).

Müasir fəlsəfə metodoloji diskussiyaların səmərəliliyinə parlaq nümunələr verir. Burada, demək olar ki, hər bir nəzəriyyə, yanaşma metodoloji testdən keçirilir. Hansısa fəlsəfi kateqoriyanın tərifi bitməz dartışmaya səbəb olur. "Materiya" kateqoriyasının nəliyi və necəliyi ilə bağlı hələ də diskussiyalar davam edir. "Dünyada determinizm var, ya yoxdur" sualı David Yumdan sonra şübhəli məsələyə çevrilib. Ancaq sadaladığımız bütün bu elmlər üzrə Azərbaycanda metodoloji mübahisələri çox az görmək mümkündür. Bizdə struktur dilçiliklə ənənəvi dilçiliyin aktiv debatı müxtəlif ədəbiyyatşünaslıq, fəlsəfi məktəblərin mübahisəsi olmayıb (2, səh. 3). Bu kontekstdə Azərbaycan kulturologiyasını götürəndə vəziyyət daha acınacaqlı görünür. Azərbaycanda metodoloji məsələlər üzrə debata çox az hallarda rast gəlinir. Bu mənada deyə bilərik ki, Azərbaycan mədəniyyətşünaslığında ciddi özünüdərk, refleksiya problemi var. Onu da söyləyək ki, "reflekt" sözü latınca qaytarmaq mənasını verir və ona görə də ingilis filosofu Lokkun sayəsində fəlsəfiləşəndə düşüncənin şüura qayıdıb hədəflənməsini bildirməyə başlamışdı. Bunu Teyyar de Şarden belə anlatmışdı: refleksiya təkcə bilmək deyil, özünü bilməkdir. Şübhəsiz, heyvan da bilir, ancaq o, bildiyini bilmir (3, səh. 143-144).

Bu müddəanın, yəni Azərbaycan mədəniyyətşünasılığında refleksiya qıtlığının ittiham aspektini arqumentləşdirmək üçün fəlsəfi haşiyəyə ehtiyac var. Ona keçək. Yaxşı məlumdur ki, şüurun digər mental hadisələrdən fərqini anlamaqda fransız filosofu Rene Dekartın böyük rolu olub. O, ilk dəfə aydın mətnlə deyib ki, şüur özünüşüur, özünübilmədir. Yəni özünü dərk etməyən, özünü düşünməyən şüur psixikadır, şüur deyil. Fransız filosofunun bu ideya töhfəsini hətta Haydeger də tam nüfuzu ilə təsdiq edərək şüurun özəlliyinin kəşf









edilməsini Dekartın nailiyyət siyahısına salmışdı (4, səh. 46).

Fransız filosofunun şüur probleminə verdiyi şərhdən sonra Ziqmund Freydin nəyə görə "şüuraltı" terminindən istifadə etməsinin səbəbi aydın olur. Psixoanalizin banisinə görə, şüuraltı özünü dərk etmədiyi üçün "şüur" terminini üstünə götürə bilməz (5, səh. 150-153). Bu prinsipə görə də Freydin terminini "alt şüur" kimi "azərbaycanlaşdıranlar" kökündən səhv edirlər, çünki "alt şüur" terminindən belə çıxır ki, şüurun altındakı psixi qat da şüurdur (6 http://1937.az/yeni/view/2414).

Qoyduğumuz məsələnin dairəsinə Freydin tələbəsi analitik psixologiyanın banisi Karl Yunqun öz əlavəsi olmuşdur. O, psixi-ruhi aləmlə bağlı nəzəriyyəsinin əsas kateqoriyasını "şüursuzluq" adlandırmışdı (7, səh. 111-138-139). Bu axırıncı arxetiplər vasitəsilə insanı və mədəniyyəti idarə etsə də, özünü dərk edən, bilən mental başlanğıc deyil, ona görə də qeyri-şüuri termininə uyğundur. Yeri gəlmişkən, bir metodoloji məsələni söyləyək ki, metodoloji saf-çürüyün önəmi görünsün. Rusca və digər Avropa dillərində mədəniyyət aktları ilə bağlı "şüuraltı" ("podsoznatelnoe", "subconscious"), "şüursuz" ("bessoznatelnoe", "unconscious") sözləri normal fəaliyyətdədir. Bizim dilimizdə isə "şüursuz" kəlməsi ağılsız mənasında ("nə şüursuz adamdır!") insanı danlamaq üçün o qədər işlədilir ki, onu elmi terminə çevirmək olmur (belə qınaq üçün rusca "nesoznatelnıy" sözünü işlədirlər). Ona görə də hər hansı mədəniyyət aktının (məsələn, bədii yaradıcılığın) şüursuz tərəfini "şüursuz" sözü ilə bildirəndə ağılsızlıq mənaları önə çıxır və elmi teksti dolaşığa salır. Bu zaman daha çox "biixtiyar", "ixtiyarsız olaraq" işlədirlər. Halbuki ərəbcə bəyənib seçmək, iradə göstərmək mənalarını verən "ixtiyar" sözündə şüur məqamı görünməzdir.

Biz "metodologiya və termin" məsələsinə təsadüfən toxunmadıq, çünki terminlərin vəziyyəti, hansı sözlərin termin olaraq seçilməsi, işlədilməsi və eləcə də elmi aparatın kəsərliyi metodoloji saf-çürük tələb edir. Milli kulturologiyamızın termin-anlayışlarla bağlı böyük nöqsanları bir daha irəlidə söylədiklərimizi təsdiqləyir. Əgər bizdə metodologiya gəlişsəydi, terminoloji bazamıza bu qədər çözülməmiş problemlər yığılmazdı.

Söylədiyimizi bir neçə misalda aydın edək. "Mədəni fəaliyyət" deyimində "mədəni akt" deyimindəki hərəkətin, davranışın adiliyi görünmür. Bizdə "fəaliyyət" nəsə yüksək üslubun, yüksək əməllərin "adıdır". Ona görə "siyasi fəaliyyət", "xeyriyyə fəaliyyəti" deyirlər, ancaq, məsələn, "təmizlik fəaliyyəti" nəsə qondarma səslənir. Halbuki Azərbaycan kulturologiyasının terminlər sistemində "etmək/eləmək" sözü ilə qohum olan "eyləm" işlənsə, elmi dilimiz xeyli çox dəqiqliyə çatar. "Təmizlik eyləmi", "təhqir yönümlü eyləmlər", "tərifləmək eyləmi" kulturoloji diskursları xeyli rahat edər. Eləcə də "kültür" sözü. Bu söz "səl" şəkilçisinin sayəsində "kültürsəl" şəklini alaraq xeyli asan təyinləşir, yəni təyin cümlə üzvü olur. Adətən, təyin kimi "mədəni" sözündən istifadə edirlər. Ancaq bu kəlmənin bir eyibi var: "mədəni fəaliyyət" söz birləşməsində o, birinci olaraq etiket, nəzakət qaydalarına əməl edən fəaliyyət növünü nəzərə çatdırır. Eləcə də "mədəni dəyərlər" söz birləşməsi kimi heç cür mədəniyyətə daxil olan sərvətləri anlatmır, daha çox qabalığa qarşı duran sərvətləri bildirir. Halbuki "kültürsəl dəyərlər", "kültürsəl eyləmlər" bu mənfi semantik halları aradan götürərdi.

Azərbaycan kulturologiyasının elmi dilinin dilçiliyin və fəlsəfənin terminlər sisteminə baxanda daha çox problemləri var. Kulturologiyanın metodoloji problemlərə marağının şiddətlənməsi dil-termin məsələsini də ciddi araşdırma obyektinə çevirərdi.

Yenidən şüur problemində Dekartın xidmətinə qayıdıb bir simptomatik halı qeyd edək. Elə Dekartın dövründə Por-Royal məktəbində Aristoteldən və sxolastlardan qalma məntiq məhz elmi metod kimi şərh edilmişdi. Beləcə, fəlsəfə metod ideyasını mənimsəmək üçün ilk addımları atmışdı. Sanki Dekartın özünü düşünən şüur fenomeni elmin özünü düşünmə fenomeni olan metodla unison əmələ gətirmişdi. Bu metodoloji buket içində Por-Royal qrammatikası özünə kontekst qazanmışdı. Axı dillə bağlı qrammatik düşüncə dilin necə qurulmasını, necə işlənməsini tapmaq idisə, deməli, dilin metodunu tapmaq üçün dilin özünü düşünməsi idi.

XVII əsrdə elmin metodologiyası Leybnitsdə öz davamını taparaq klassik alman fəlsəfəsinə keçmişdi. Bu metodoloji təfəkkür özünüdərk fenomenindən qaynaq aldığı üçün özünüdərki yeni anlayış və metaforalarda düşünməyə ehtiyac yaratmışdı. Bu planda Lokkun xidməti xüsusilə böyük olmuşdu. Dedik ki, ingilis filosofu özünüdərklə bağlı yeni termini – "refleksya"nı dövriyyəyə salmışdı. Bu fakt da simptomatik idi. Ona görə "simptomatik" idi ki, dövrün fəlsəfi ruhu şüurun özünü dərk etməsini müxtəlif aspektlərdə mənimsəməyə başlamışdı. Bəlkə də buna səbəb məhz XVII əsrdə fəlsəfədə subyekt/obyekt terminlərinin populyarlaşması olmuşdu. Axı obyektdən, cisim və əşyalardan fərqli olaraq subyekt öz kimliyini bilən insan idi.

Lokk həmin bu subyekt fenomenini, onun intellektual xüsusiyyətlərini aşkar etmək üçün irəli sürmüşdü ki, insan təkcə duyğularla, yəni sensitiv, sensual yolla bilik almır. O həm də refleksiya etməklə varlığı dərk edir. Refleksiya vasitəsilə ağıl öz fəaliyyətini müşahidə edir. Lokk ağılın fəaliyyəti deyəndə həm ağılın öz ideyaları ilə bağlı etdiklərini, həm də ideyaları ilə ehtiraslar, duyğular doğurmasını nəzərdə tuturdu (8, səh. 129).

Bizim fikrimizcə, elmi təfəkkürün metodoloji problemlərə çıxmasının tarixi kontekstini, müqəddəm şərtlərini düşünmək istəsək, gərək Dekartın və Lokkun ideyalarından bu konteksti və müqəddəm şərtləri tərtib edək. Fəlsəfə Dekartın sayəsində şüuru özünü bilmə kimi anlayanda refleksiya mərhələsinə keçməliydi. Bu isə metodoloji tədqiqatlar mərhələsinə keçid demək idi. Metodoloji problemlərdə elm obyektini və predmetini dərk etməklə yox, onları hansı yollarla, hansı anlayış və müddəalarla dərk etməsini araşdırmaqla məşğul olur. Dilimizdə "saf-çürük etmək" ifadəsi var. Nəyisə saf-çürük etmək onu çürüklərdən təmizləyə-təmizləyə sağlam ünsürlərini seçməkdir. Elmin metodologiyası onun refleksiya edərək özünü saf-çürük etməsidir. XX əsr üçün metodoloji problemlərin bütün elmlər, o cümlədən kulturologiya üçün mühüm mövqeyə keçməsinin bir səbəbi də elmi refleksiya gərəkliyinin aktuallaşması olmuşdur.

**Ədəbiyyat**

1. M.F.Axundov. "Nəzm haqqında. Bədii və fəlsəfi əsərləri". "Yazıçı". Bakı – 1987.
2. S.Salam, E.Başkeçid, K.Abdulla. "Məqamlar". Bakı – 2011.
3. П.Т.Шарден. "Феномен человека. Преджизнь. Жизнь. Мысль. Сверхжизнь". Москва – 1987.
4. М.Хайдеггер. "Время и Бытие". Москва – 1993.
5. С.Орлов. "История философии". Санкт-Петербург – 2009.
6. K.Abdulla. "Birun – Əndərun" oyunları. http://1937.az/yeni/view/2414.
7. A.Əsədov. "Təfəkkürün fəlsəfəsi". Bakı – 1997.
8. Д. Локк. Избранные философские произведения в двух томах, т.I. Москва – 1960.

**Резюме**

Методологическая активность – высшее проявление рефлексивности в науке. Декарт, подчеркивая характер сознания как самосознание, Локк, переформулируя этот процесс в термин "рефлексии", создали предпосылки для методологических направлений в науке. Азербайджанская культурология даже сейчас испытывает острый дефицит методологической рефлексии и самосознания. Терминологическая скудость и неразбериха в ней обусловлены этим состоянием.

**Ключевые слова:** методология, рефлекс, эпистемология, Декарт.

**Summary**

Methodological activity is the highest expression of reflexion in science. Dekart noted the character of consciousness as self-consciousness. Lokk changed the form of this process into the term "reflexion". Thus they created prerequisities for methodolocical tendencies in science.

Azerbaijani culturology even now has a lack of methodological reflexion and consciousness. Terminological scarcity and confusion in it caused by this state.

**Key words:** methodological, reflexion, epististemological, Descartes